

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 118 (24.255)

6 iyul 2023-cü il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü keçirilir

## Prezident İlham Əliyev görüşdə iştirak edib




İyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü keçirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli nazirlər.

Xanımlar və cənablar.

Əziz qonaqlar.

Mən sizin hamınızı Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə salamlayıram.

Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün sədrliyi öz üzərinə götürdü və yenidən yekdil qərarla sədrliyimiz daha bir il uzadıldı.

Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu.

Beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, misligörünməmiş bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu.

2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə təşkil edilmiş Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə nəticələndi. Bundan əlavə, Qoşulmama Hərəkatının bəzi zəngin ölkələr tərəfindən yürüdülən "peyvənd millətçiliyi"nə güclü etirazı və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyinə dəlalət edir.

Hərəkatın institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması Azərbaycanın sədrliyinin növbəti nailiyyətidir. Biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik. İnstitusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq.

Beynəlxalq ictimaiyyətin məsuliyyətli və fəal üzvü olaraq biz, həmçinin postpandemiya dövrü haqqında düşünməli olduq. Beləliklə, Azərbaycan bu ilin mart ayında Bakıda Qoşulmama Hərəkatının pandemiyadan sonrakı bərpaya həsr olunmuş növbəti sammitini uğurla təşkil etdi. Biz burada qlobal əhəmiyyətə malik məsələləri müzakirə etdik və pandemiyadan sonrakı dövrdə daha yaxşı bərpa üzrə fikirlərimizi bölüşdük.

Ehtiyacı olan ölkələrə yardım göstərmək Azərbaycanın sədrliyinin digər prioriteti idi. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərib. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə verib. Biz, həmçinin beş ölkəni peyvəndlə təmin etmişik.

Yuxarıda qeyd etdiyim mart sammitində mən, həmçinin Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə postpandemiya dövründə bərpanı dəstəkləmək üçün iki qlobal çağırış elan etdim. Azərbaycan ilk donor kimi hər iki çağırış üçün bir milyon ABŞ dolları ayırdı.

Xanımlar və cənablar, multilateralizmin əsl müdafiəçisi və BMT-dən sonra ikinci böyük təsisat kimi Qoşulmama Hərəkatı yenidən formalaşan dünya nizamında öz yerini tapmalıdır. Biz "Bandunq prinsipləri" ətrafında qətiyyətlə dayanmalı, suverenliyin və ərazi bütövlüyünün pozulması, ölkələrin daxili işlərinə müdaxilə hallarına qarşı öz səsimizi ucaltmalıyıq. Hərəkatımızın dünya məsələlərində daha ön mövqedə olması mühüm əhəmiyyət kəsb edir.

Multilateralizm bizim güclü vasitəmizdir. Hazırda beynəlxalq təşkilatlar, xüsusilə BMT bəşəriyyətin gözləntilərinə cavab vermir. BMT-də ciddi islahatların aparılması qaçılmazdır. BMT Təhlükəsizlik Şurası keçmişin qalığıdır və hazırkı reallıqları əks etdirmir. Biz Təhlükəsizlik Şurasında daha çox ölkənin təmsil olunması və coğrafi baxımdan daha ədalətli olması üçün onun tərkibinin genişləndirilməsinin tərəfdarıyıq. Şadam ki, bu gün bu ideya ilə bağlı dünyada artan konsensus vardır.

Əvvəllər qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir. Zənnimizcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar.

Azərbaycan neokolonializm meyillərinin artmasından olduqca narahatdır. Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir.

Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Mən öz haqq işlərini və azadlıq arzularını beynəlxalq ictimaiyyətə çatdırmaq üçün Bakı nazirlər görüşü çərçivəsində tədbir keçirəcək Fransanın dənizaşırı icma və ərazilərindən olan hörmətli nümayəndələri salamlayıram.

Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri mühariba qənimətləri kimi saxlanılır. Bu, utancverici və iyrənc hərəkətdir. Biz Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik.

Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır.

Fransa XX əsrin ikinci yarısı boyunca Əlcəzairdə və özünün dənizaşırı ərazilərində – Sakit okeanda, Fransa Polineziyasında bir neçə nüvə silahı sınağı keçirmiş və bununla



da qlobal səviyyədə ətraf mühitin deqradasiyasına, yerli icmalarda ciddi sağlamlıq problemlərinə səbəb olmuşdur.

Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir.

Bir neçə gün əvvəl Niderland kralı ölkəsinin müstəmləkə keçmişinə və qul ticarəti ilə məşğul olduğuna görə rəsmən üzr istəyib. Biz onun fransız həmkarını da həmin hərəkəti etməyə çağırırıq. Heç vaxt olmamaqdansa, gec olması yaxşıdır. Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək.

Fransada, xüsusilə də mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlər, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışlar getdikcə artmaqdadır. Bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsi bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlamətidir. Bu baxımdan biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləyirik.

Fransa, hətta Korsika dilinə qadağa qoyur və etnik azlıqlar konsepsiyasını qəbul etmir, lakin, eyni zamanda özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır. Bu, riyakarlıq və ikili standartlardan başqa bir şey deyil.

Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsində bu cür narahatedici meyillərlə mübarizə aparmalıdır.

Əziz dostlar, iqlim dəyişikliyi, su qıtlığı, ərzaq təhlükəsizliyi, məcburi miqrasiya kimi məsələlər bizim daimi diqqətimizi tələb edir. İnkişaf etməkdə olan kiçik ada dövlətləri iqlim dəyişikliyinin təsirlərinə daha həssasdır və ekzistensial təhlükə ilə üzləşirlər. Miqrant qayıqlarının Aralıq dənizində qəzaya uğramasının dəhşətli fotoları xüsusilə narahatedicidir.

Fikrimizcə, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi bizim gündəliyimizdə öndə duran məsələlər olmalıdır. Biz geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin İslamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatıq. Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması, təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir.

Xanımlar və cənablar, sədrliyimiz dövründə Azərbaycan xalqı üçün ən önəmli və yaddaqalan məqam Vətən müharibəsində bizim Tarixi Qələbəmiz oldu. 2020-ci ildə Azərbaycanlı Ermənistanı döyüş meydanında məğlub edərək Ermənistanın 30 illik işğalına son qoydu. İşğalçı ölkə kimi Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bununla da, Azərbaycan öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnaməsinin icrasını özü təmin etdi. Azərbaycanın bu Qələbəsi beynəlxalq hüququn və ədalətin zəfəridir.

Otuz il əvvəl Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin, təxminən, 20 faizini işğal etdi, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirdi. Bunun nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Ermənistan 1992-ci ildə Xocalı şəhərində 613 azərbaycanlını, o cümlədən 106 qadını və 63 uşağı yalnız etnik mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirdi.

Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzədir. Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir.

*Ardı 2-ci səhifədə*

Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətmişdir.

İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalanlarından isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarına qarşı təhqirdir.

Altmış min hektar meşəlik məhv edilmiş, kəsilmiş və daşınmışdır, torpaqlarımız və çaylarımız çirkləndirilmiş və zəhərləndirilmişdir.

Ermənistan indi isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində transsərhəd ekoloji fəlakət törətməkdə davam edir. Bununla Ermənistan 1991-ci il Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasından (Espoo Konvensiyası) irəli gələn öhdəliklərini pozmuş olur. Bu Konvensiyada ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biri ilə məsləhətləşmələr aparmasının vacibliyi açıq şəkildə qeyd edilir.

Ermənistanın işğalının digər mənfi fəsadı minalardır. Azərbaycan hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır. 2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlayışı nəticəsində, təxminən, 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. İşğaldan azad edilmiş ərazilərdə baş verən hər bir mina partlayışı Ermənistanın törətdiyi hərbi cinayətlərin uzun siyahısının davamıdır. Mina problemi Ermənistan tərəfindən Azərbaycan xalqının fundamental insan hüquqlarının pozulmasıdır. 2020-ci ildə kapitulyasiyadan sonra da Ermənistan külli miqdarda mina istehsalını davam etdirirdi və onları Laçın sərhəd-gömrük buraxılış məntəqəsi yaradılana qədər Azərbaycanın Qarabağ bölgəsinə daşıyırdı.

Minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıdışını ləngidir. Bunu nəzərə alaraq Azərbaycan humanitar minatəmizləmə üzrə xüsusi milli Dayanıqlı İnkişaf Məqsədi müəyyənləşdirib. Bundan başqa, Azərbaycan qlobal miqyasda humanitar minatəmizləmə səylərini dəstəkləyir və minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təklifini irəli sürmüşdür.

Əminəm ki, Qoşulmama Hərəkatının üzv dövlətləri səylərimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifimi dəstəkləyəcəklər.

Ermənistan, həmçinin Birinci Qarabağ müharibəsi nəticəsində işgəncələrə məruz qalan, öldürülən və kütləvi məzarlıqlarda basdırılan 4 minə yaxın itkin düşmüş azərbaycanlının taleyinin müəyyənləşdirilməsində tam şəffaflığı təmin etməli və əməkdaşlıq etməlidir.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan işğaldan azad edilmiş 10 min kvadratkilometrlik ərazidə özünün maliyyə imkanları hesabına sıfırdan irimiqyaslı yenidənqurma işlərini uğurla həyata keçirir.

Münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipini təqdim edib.

Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur. Əgər Ermənistan, həqiqətən, də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir.

Ermənistan, həmçinin, təxminən, 3 il əvvəl imzaladığı kapitulyasiya aktında yer almış digər öhdəliyi olan və Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına mane olur.

Xanımlar və cənablar, fürsətdən istifadə edərək, işğal zamanı və işğaldan sonra Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə göstərdikləri prinsipial mövqeyə görə Qoşulmama Hərəkatı ölkələrinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən xüsusilə 2020-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı ölkələrinin BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısını aldıqları iki hala istinad edirəm.

Mən, həmçinin Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinə həmrəyliklərinə və Azərbaycana sədrliyini uğurla həyata keçirmək üçün göstərdikləri dəstəyə görə təşəkkür etmək istərdim.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakı nazirlər görüşünə uğurlar arzu edirəm. Əminəm ki, bu görüş səmərəli və nəticəyönümlü müzakirələrlə yadda qalacaqdır.

Təşəkkür edirəm.

***

Nazirlər görüşü işini müzakirələrlə davam etdirib.

## Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib



İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.

Hakan Fidanı Türkiyənin xarici işlər naziri təyin edilməsi münasibətilə təbrik edən Prezident İlham Əliyev ona fəaliyyətində uğurlar arzuladı. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın seçkilərdən sonra Azərbaycana dövlət səfərini ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin nümunəsi kimi qiymətləndirdi.

Təbrikə görə minnətdarlığını bildirən Hakan Fidan həm çalışdığı əvvəlki vəzifələrdə, həm də hazırda xarici işlər naziri kimi Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq və dostluq münasibətlərinin inkişafını daim rəhbər tutduğunu qeyd etdi, Türkiyənin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvət olunmasına görə təşəkkürünü bildirdi.

Türkiyənin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bununla da ölkəmizin çox önəmli prosesə rəhbərlik etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının təsisatlanması prosesində ölkəmizin gördüyü işlər, həmçinin sədrlik prosesi barədə məlumat verdi.

Söhbət zamanı regional məsələlərə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində gedən proseslər barədə danışdı.

Görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin strateji müttəfiqlik zəminində, "bir millət, iki dövlət" prinsipi əsasında bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin daim bir-birinin yanında olduqları qeyd edildi.

## Prezident İlham Əliyev İraqın Baş nazirinin müavinini qəbul edib



İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İraq Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseyni qəbul edib.

Dövlətimizin başçısı bu ilin martında Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü zamanı İraq Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşünü məmnunluqla xatırladı, həmin görüş zamanı Azərbaycan-İraq əlaqələrinə dair geniş fikir mübadiləsinin aparıldığını qeyd etdi.

Fuad Hüsseyn İraqın Prezidenti Əbdüllətif Camal Rəşidin və Baş naziri Şiya əs-Sudaninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İraqın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

İraqın Baş nazirinin müavini, xarici işlər naziri ölkələrimiz və xalqlarımız arasında tarixi əlaqələrin olduğunu vurğuladı.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlarda, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, OPEC+ formatı çərçivəsində uğurla əməkdaşlıq etdikləri bildirildi.

Fuad Hüsseyn İraqın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini daim dəstəklədiyini bildirdi, ölkəmizin Hərəkata uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Görüşdə münasibətlərimizin müxtəlif istiqamətlərdə inkişaf perspektivləri, o cümlədən enerji və turizm sahələrində əməkdaşlıq, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Xüsusilə turizm sahəsində əlaqələrin COVID-19-dan əvvəlki dövrdəki uğurlu dinamikaya uyğun olaraq genişləndirilməsi, İraqın və Azərbaycanın müxtəlif şəhərləri arasında birbaşa hava reyslərinin açılması, sərmayələr, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Həmçinin rəsmi və biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi qeyd edildi.

## Prezident İlham Əliyev İranın xarici işlər nazirini qəbul edib



İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanı qəbul edib.

İranın xarici işlər naziri onu qəbul etdiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi.

Hüseyn Əmir Abdullahiyan İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə Azərbaycanı təbrik edən İranın xarici işlər naziri ölkəmizin sədrliyi dövründə Hərəkatın davamlı və dinamik surətdə inkişaf etdiyini vurğuladı.

Hüseyn Əmir Abdullahiyan Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşünün açılış mərasimindəki çıxışında çox vacib məqamlara toxunduğunu deyərək bu tədbirin əhəmiyyətini qeyd etdi, onun gündəliyindəki çox vacib məsələlərin müzakirə olunduğunu vurğuladı.

İranlı nazir ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafında müsbət dinamikanın olduğunu dedi, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsində Azərbaycanla İranın mühüm rol oynadığını diqqətə çatdırdı.

Azərbaycan səfirliyinə qarşı törədilmiş terror aktının İranın məhkəmə və hüquq-mühafizə orqanları tərəfindən çox ciddi şəkildə araşdırıldığını bildirən nazir Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin tezliklə bərpa olunacağına ümidvarlığını ifadə etdi.

Prezident İlham Əliyev, öz növbəsində, Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terror aktında müqəssir olan şəxslərin layiqli cəzasını alacaqlarına ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatında rolundan və onun təsisatlanması istiqamətində həyata keçirdiyi işlərdən danışdı.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin son dövrlərdə artan dinamikası məmnunluqla qeyd edildi, Şimal-Cənub nəqliyyat dəhlizinin, həmçinin bu marşrutla bərabər, Şərqi Zəngəzur iqtisadi rayonu ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya bağlantılarının icrasının inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Hər iki ölkənin aidiyyəti nümayəndə heyətlərinin yaxın vaxtlarda görüşünün keçiriləcəyi müsbət hal kimi qeyd olundu.



# Prezident İlham Əliyev Monteneqronun Baş nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Monteneqronun Baş naziri və xarici işlər naziri vəzifəsini icra edən Dritan Abazoviçi qəbul edib.

Dritan Abazoviç Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvətə görə təşəkkürünü bildirdi və Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı Prezident İlham Əliyevin və Baş nazir Dritan Abazoviçin bu il Davosda keçirilmiş görüşü məmnunluqla xatırlandı.

Görüşdə Monteneqronun Azərbaycan ilə enerji, turizm, investisiyalar və digər sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğu qeyd edildi, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə dəstəyi vurğulandı.

# Prezident İlham Əliyev Özbəkistanın xarici işlər nazirini qəbul edib



İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidovu qəbul edib.

Baxtiyor Saidov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin əziz dostu və qardaşı Prezident İlham Əliyevə salamlarını çatdırıb.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.

Baxtiyor Saidov Azərbaycanın Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrliyi və nazirlər görüşünün uğurla keçirilməsi münasibətilə təbriklərini ifadə etdi. O, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri çərçivəsində iki ölkə başçısının müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq fəaliyyətin davam etdirildiyini və qarşıya qoyulmuş bütün məqsədlərin diqqətdə saxlanıldığını vurğuladı.

Prezident İlham Əliyev, öz növbəsində, Özbəkistana dövlət səfərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə Özbəkistan tərəfindən məktəb tikintisi layihəsinin xüsusi önəm daşıdığını bildirdi, Prezident Şavkat Mirziyoyevin tezliklə Azərbaycana səfərinin gözlənildiyini qeyd etdi.

Söhbət zamanı Azərbaycanın və Özbəkistanın Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdikləri diqqətə çatdırıldı, ikitərəfli gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Fələstinin xarici işlər nazirini qəbul edib



İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib.

Riad Əl-Maliki Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılması ilə bağlı təşəkkürünü bildirdi. O, Azərbaycanın xarici işlər nazirinin Fələstinə səfərinin önəmini vurğuladı, bu addımın Azərbaycanla Fələstin arasında ikitərəfli əlaqələrin inkişafına ciddi təkan verəcəyinə əminliyini ifadə etdi.

Fələstinin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. O, Azərbaycanın Fələstinə göstərdiyi daimi humanitar yardımın və dəstəyin Fələstin xalqı tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.

Riad Əl-Maliki Azərbaycanı öz torpaqlarını işğaldan azad etməsi münasibətilə təbrik etdi.

Azərbaycan Prezidenti Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyeh ilə görüşünü məmnunluqla xatırladı. Dövlətimizin başçısı bu görüş əsnasında Fələstində Azərbaycan tərəfindən məktəbin tikilməsi layihəsi barədə müraciətin olduğunu qeyd edərək, buna müsbət münasibətin bildirildiyini və tezliklə bu layihənin icra olunacağını dedi. Dövlətimizin başçısı Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılmasını müsbət addım kimi dəyərləndirdi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

# Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) nümayəndə heyəti Naxçıvana işgüzar səfər edib

İyulun 5-də Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) nümayəndə heyəti Naxçıvana səfər edib.

Qonaqlar əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.

Sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisində AZPROMO nümayəndələri ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli arasında görüş keçirilib. Görüş zamanı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın əhəmiyyətini vurğulayan Fuad Nəcəfli bu istiqamətdə artıq alt tədbirlər planının formalaşdırılmağa başlanıldığını qeyd edib. Bildirib ki, yaxın gələcəkdə Naxçıvan iqtisadiyyatında yeni dəyərlər yaradılacaq.

Görüş zamanı Naxçıvanda istehsal olunan məhsulların ixrac potensialından, "Orqanik Naxçıvan" brendi altında məhsulların istehsalı, emalı, tədarükü və ixracı istiqamətində görüləcək işlərdən bəhs olunub.



Sonra AZPROMO-nun nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyevlə görüşü olub. Görüşdə Naxçıvanın ixrac potensiallı məhsullarının keyfiyyətinə əminlik ifadə olunub. AZPROMO-nun dəstəyi ilə bu məhsulların təbliği istiqamətində işlərin görülməsinin vacibliyi vurğulanıb.

Daha sonra Naxçıvan Biznes Mərkəzində muxtar respublikada fəaliyyət göstərən, ixrac potensiallı məhsul istehsal edən sahibkarlar və investorlarla görüş olub.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev vurğulayıb ki, AZPROMO-nun dəstəyi ilə Naxçıvanda fəaliyyət göstərən sahibkarların ölkəmizin digər bölgələrində və xaricdə keçirilən biznes forumlarda iştirakının təmin edilməsi və həmin forumlarda istehsal etdiyi məhsulların təqdimatını həyata keçirməsi sahibkarlıq əlaqələrinin genişləndirilməsinə gətirib çıxaracaq.

AZPROMO-nun icraçı direktorunun vəzifələrini müvəqqəti icra edən Yusif Abdullayev Naxçıvanda AZPROMO-nun nümayəndəliyinin yaradılmasının vacibliyini vurğulayaraq bildirib ki, Naxçıvanda istehsal olunan məhsulların ölkə bazarlarında satışının təmin edilməsi üçün logistika subsidiyalarının ayrılması nəzərdə tutulub.

Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov və İqtisadiyyat Nazirliyinin şöbə müdiri Orxan Abidinov yerli məhsulların bir çox beynəlxalq sərgilərdə nümayiş olunmasında, ixracın təşviqində və investisiyaların cəlbində AZPROMO-nun dəstəyini yüksək qiymətləndiriblər.

Sonra AZPROMO-nun icraçı direktorunun müşaviri Tural Hacılının AZPROMO-nun həyata keçirdiyi dəstək mexanizmləri haqqında təqdimatı nümayiş olunub.

Daha sonra sahibkarlar və investorlarla mövzu ətrafında müzakirələr aparılıb, onların təklifləri dinlənilib.

**"Şərq qapısı"**

# Naxçıvanda AZPROMO-nun fəaliyyət göstərməsi sahibkarlar üçün faydalı olacaq

Azərbaycanın İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun rəhbəri ***Yusif Abdullayev*** Naxçıvan Muxtar



Respublikasına səfər çərçivəsində "Şərq qapısı" qəzetinə müsahibə verib: – Bizim agentliyin əsas istiqamətləri ixracın genişləndirilməsi və investisiyaların cəlbidir. Agentliyimiz Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərir. Naxçıvana səfərimizin əsas məqsədi burada fəaliyyət göstərən şirkətlərin ixracının genişləndirilməsidir. Burada əsas məsələ Naxçıvanın ixrac potensialının müəyyənləşdirilməsidir ki, hansı şirkətlər, hansı həcmdə, hansı keyfiyyətdə məhsullar istehsal edə bilirlər. Bu istehsalın həcmi və əsas məqsədi hansı bazarlara uyğundur. Bu ilin fevral ayında iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərliyi ilə İqtisadiyyat Nazirliyinin və onun tabeliyində olan qurumların nümayəndələrinin Naxçıvana səfəri zamanı bugünkü görüşün təməli qoyulmuşdu. Biz buradakı görüşlərimizdə Naxçıvanda AZPROMO-nun nümayəndəliyinin və yaxud filialının açılması məsələsini müzakirə etdik. Düşünürəm ki, artıq bu barədə biz razılıq əldə etmişik. Bu, sahibkarlar üçün daha faydalı olacaq, ona görə ki, onlar hansısa sual və müraciətlərinə daha çevik formada cavab ala biləcəklər. Eyni zamanda bizim "Made in Azerbaijan" brendinin təşviqi çərçivəsində mövcud və yeni dəstək mexanizmlərindən



Naxçıvan şirkətləri də faydalanacaqlar. Geniş tərkibdə ixrac missiyasını planlayırıq. Naxçıvanda böyükmiqyaslı investisiya forumunun keçirilməsi müzakirə predmentidir. Düşünürük ki, geniş formatda belə tədbirlərin mütəmadi təşkili Naxçıvanda fəaliyyət göstərən şirkətlərin potensialını göstərmək, eyni zamanda hələ potensialı tam araşdırılmayan digər sahələri də ortaya çıxarıb investorlara, alıcılara təqdim etmək baxımından əhəmiyyətli olacaq.

*Ardı 4-cü səhifədə*

Naxçıvanda ixrac potensialı genişdir. Sahibkarlarla təşkil olunan görüşdə də onlar da səmimi etiraf etdilər ki, dövlət tərəfindən Naxçıvana ciddi şəkildə dəstək var. Müəyyən proseslərin genişləndirilməsinə çox böyük ehtiyac var. Burada enerji, kənd təsərrüfatı sahəsində xarici investorların fəaliyyəti təqdirəlayiqdir. Ancaq düşünürük ki, əldə olunan nəticələri dəyərləndirib fəaliyyətimizi daha da genişləndirək, Naxçıvanda daha çox xarici, eləcə də yerli investorları görək və istehsal olunan məhsullarımızın ixracını genişləndirək. Burada əsas məsələlərdən biri də logistikanın subsidiyalaşdırılmasıdır. Düşünürük ki, logistikaya dəstək vermək lazımdır. Bu həm Naxçıvanda istehsal olunan Azərbaycanın digər bölgələrində satılan məhsulların logistikasına, eyni zamanda da ixrac olunan məhsullara şamil oluna bilər. Düşünürəm ki, çox faydalı və nəticəyönümlü addımlar atılacaq. İnvestorların cəlbi istiqamətində qlobal investisiya forumlarında, AZPROMO və İqtisadiyyat Nazirliyi təmsil olunduğu platformalarda xüsusi Naxçıvanla bağlı sessiyaların keçirilməsi, Naxçıvanın mövcud və hələ görsənməyən potensialının araşdırılması məsələsində çox geniş dialoqun formalaşması önəmlidir. İmkanlar mövcuddur, ancaq bunu böyük, geniş auditoriyaya açmaq lazımdır. Bu da bizim təbliğat, təşviqat işlərimizin əsas istiqamətlərindən biridir. İnvestorlar üçün potensialın göstərilməsi, ixracatçılarımızın istehsal etdiyi məhsulların qablaşdırılmasına, dizaynına, nəticədə, satışına, logistikasına dəstək olunması, eyni zamanda forumların təşkili yaxın gələcəkdə Naxçıvanda fəaliyyət göstərən biznesin genişləndirilməsinə çox böyük töhfə verəcəkdir.





✍ Güntac ŞAHMƏMMƏDLİ

## Vətəndaşlarla görüş

*Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, kənd təsərrüfatı naziri vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərovun iştirakı ilə rayonda fəaliyyət göstərən təsərrüfat sahibləri ilə görüşüb.*

Görüşdə Kənd Təsərrüfatı Nazirliyinin dəvəti ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi Aygün Quliyeva da iştirak edib.



Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov keçirilən görüşün əhəmiyyətindən və rayonda aqrar sahədə görülmüş işlərdən danışıb.

Görüşdə Xəyalə Dadaşova dövlət başçısı cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "2023-2027-ci illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" haqqında danışaraq qeyd edib ki, Dövlət Proqramında aqrar sahənin inkişafı istiqamətində bir çox məsələlər qarşıya hədəf kimi qoyulub. Bu məsələlərin icrası aqrar sahənin müasir dövrün tələblərinə uyğun innovasiyayönümlü inkişafının təmin edilməsinə, bitkiçiliyin və heyvandarlığın təşkilində yeni yanaşmanın tətbiqi ilə məhsuldarlığın yüksəldilməsinə, innovativ suvarma metodlarının genişləndirilməsinə öz töhfəsini verəcək. Nazir müavini gələcəkdə bitkiçilik sahəsində rayonlaşmış kənd təsərrüfatı bitkilərinin əkilib-becərilməsinə, heyvandarlığın inkişafında isə süni mayalanma tədbirlərinin aparılmasına üstünlük verilməsinin vacibliyini vurğulayıb.

KOBİA-nın Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi Aygün Quliyeva təsərrüfat sahiblərinə təsərrüfatların inkişaf etdirilməsi, onların kiçik və orta sahibkarlara çevrilmələri üçün güzəştli şərtlərlə kreditlərin verilməsinə köməkliklərin göstərilməsi istiqamətində işlər həyata keçirəcəklərini bildirib.

Müzakirələr zamanı təsərrüfat sahibləri tərəfindən meyvə bağlarına subsidiyanın verilməsi, keyfiyyətli toxum, kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri ilə təminatı və suvarma suyunun təmin olunmasına köməklik göstərilməsi məsələləri gündəmə gətirilib.

Tədbirin sonunda Kəngərli rayonunun Qıvraq qəsəbəsində və Xıncab kəndində meyvə bağlarına, o cümlədən biçin həyata keçirilən taxıl sahələrinə baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## İyun ayında muxtar respublikada insanların mədəni istirahəti təmin edilib

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikada iyun ayında müxtəlif mədəni-kütləvi tədbirlər, konsert proqramları, müsabiqələr keçirilmiş, insanların mədəni istirahətinin təşkili diqqətdə saxlanılmış, müvafiq fərman və sərəncamlardan, qəbul edilmiş Dövlət proqramlarından irəli gələn vəzifələr icra edilmişdir.*



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamının icrası ilə bağlı Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin ifasında Ulu Öndərin sevdiyi mahnılardan ibarət DVD diskin hazırlanması istiqamətində məşqlər aparılmış, Heydər Əliyev Muzeyi tərəfindən albom-kataloqun hazırlanması işi davam etdirilmiş, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında dahi liderin həyat və fəaliyyətindən bəhs edən Aqşin Babayevin "Xilaskar" əsəri əsasında hazırlanan tamaşanın premyerası keçirilmiş, stasionarla yanaşı N hərbi hissədə, muxtar respublikanın rayonlarında nümayiş olunmuşdur.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş ifaçılıq, rəqs və rəsm müsabiqələrinin seçim turları aparılmış yekunu və qaliblərin mükafatlandırma mərasimi keçirilmiş, "Əl işləri sərgi-müsabiqəsi"nə ərizə qəbulu başlanılmışdır. Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində Bakı şəhər 5 nömrəli uşaq incəsənət məktəbinin şagirdlərinin hesabat konserti alqışlarla qarşılanmış, Kəngərli rayonunda Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin konserti təşkil olunmuşdur.

Ümumilikdə, muxtar respublikada mədəniyyət müəssisələrində "Heydər Əliyev İli" çərçivəsində iyun ayı ərzində 37 tədbir keçirilmişdir.

İyun ayında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının 140-cı bağlanış mərasimi keçirilmiş, teatrın kollektivi tərəfindən, ümumilikdə, 14, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı tərəfindən 6, Naxçıvan Dövlət Uşaq Teatrında 3 tamaşa nümayiş etdirilmişdir.

Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivləri "Naxçıvan – Bəşəriyyətin Beşiyi" adlı VI Beynəlxalq Rəsm Festivalının açılış mərasimində, "Bakı Enerji Həftəsi-2023" çərçivəsində "Naxçıvan və Şərqi Zəngəzurun yaşıl enerji potensialı" mövzusunda keçirilən xüsusi sessiyanın iştirakçıları üçün və 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Heydər Əliyev Sarayında təşkil olunan tədbirdə konsert proqramı ilə çıxış etmiş, filarmoniyanın kollektivlərinin məşqləri ay ərzində davam etdirilmişdir. Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikası ərazisində dislokasiya olunmuş hərbi hissə və bölmələrinin əsgər və zabitlərinə şəhər və rayon mədəniyyət idarə və şöbələrinin musiqi kollektivləri tərəfindən 15 İyun – Milli Qurtuluş Günü və 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə 21 konsert proqramı təqdim edilmişdir.

Hesabat ayı ərzində nazirlik tərəfindən Sədərək rayonu ərazisində olan Sədərək (Sədərək Kültəpəsi) yaşayış yerində aparılan arxeoloji qazıntı və Şərur rayonu ərazisində yerləşən Qızqala və Oğlanqala yaşayış yerlərində aparılan kəşfiyyat işlərinə baxış keçirilmişdir.

İyun ayında muzeylərin fəaliyyəti nəzarətdə saxlanılmış, lazımi əməli və metodiki köməklik göstərilmişdir. Muxtar respublika sakinlərinin, ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən muxtar respublikamıza səfər edən qonaqların, rəsmi nümayəndə heyətlərinin muzeylərlə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilməsi diqqət mərkəzində saxlanılmışdır. Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılmasının 25-ci, Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılmasının 10 illiyi qeyd edilmiş, əlamətdar və tarixi günlər, görkəmli şəxsiyyətlər, tarix və mədəniyyətimizlə bağlı 13 açıq dərs və 24 mühazirə, müxtəlif mövzulu tədbir və seminarlar gerçəkləşmişdir. Ay ərzində muzeyləri 55 min 396 nəfər ziyarət etmiş, muzeylərə 177 yeni eksponat daxil olmuşdur.

Ötən ay muxtar respublikada kitabxanaların fəaliyyəti diqqət mərkəzində saxlanılmış, kitab müzakirələri, əlamətdar və tarixi günlərlə bağlı tədbir və sərgilər təşkil edilmiş, sağlamlıq imkanları məhdud 25 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Ay ərzində kitabxanalarda yeni oxucu sayı 1 min 097, oxucu gəlişi 9 min 397, kitab verilişi isə 63 min 420 nüsxə olmuşdur. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının Elektron kitabxanasında elektron kataloqa 56 adda kitab işlənmiş, ümumilikdə, elektron kataloqda kitabların sayı 35 min 251-dən 35 min 307-yə çatdırılmışdır.

İyun ayında klub müəssisələri Azərbaycan xalqının adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin təbliği və yaşadılması istiqamətində iş aparmış, Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəz tərəfindən Kəngərli rayonunun Çalxanqala kəndində yaşayan Qərbi Azərbaycandan olan sakinlərdən bölgə folkloruna və toponimlərinə aid nümunələri, Şahbuz rayonunun Ayrınc kəndinin sakinlərindən folklor nümunələri toplanmışdır.

Ay ərzində nazirliyin yeni *nculture.gov.az* internet saytının yenidən hazırlanması ilə bağlı iş aparılmış, *medeniyyet.nakhchivan.az* rəsmi internet səhifəsinin fəaliyyəti diqqətdə saxlanılmış, nazirliyin "Instagram" və "Facebook" hesablarında mütəmadi olaraq məlumatlar yenilənmiş, muxtar respublikada keçirilən mədəni tədbirlər media vasitələrində işıqlandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Jurnalist araşdırması*

## Naxçıvanın adını daşıyan kənd 500 illik Osmanlı xəritəsində

Bu yaxınlarda "Şərq qapısı" qəzetində "Naxçıvandan Dörddivana uzanan 900 illik sirr" yazısında "Naxçıvan məhəlləsi" adlı bir məhəllədən bəhs etmişdik. Türkiyənin Bolu vilayətinin Dörddivan rayonunun Adaköy kəndinə bağlı bu Naxçıvan məhəlləsi ilə bağlı araşdırmalarımızda tarixi mənbələrə istinad edərək öyrənmişdik ki, Malazgird savaşı ilə Anadoluya gələn Oğuz türklərinin bir bölümü 1074-1076-cı illərdə Dörddivan və ətrafındakı ərazilərə yerləşmiş və yerləşdikləri yerlərə də oğuzlara məxsus yer adları vermişlər. Seyidəlilər, Bayramlar, Camallar, Dülgər, Avşar, Göynük, Doğançılar, Dəmirçilər, Qara-ağac, Əhmədlər, Ocaqlar və onlarla bu kimi kənd və məhəllə adları indiyədək qalmaqdadır. Tarixçi Mehmet Süme "Türklərdə yer adı vermə adətləri və Oğuz boylarının Boludakı izləri" adlı əsərində yazır ki, oğuzlar yerləşdikləri ərazilərdə əvvəl yaşadıqları yer, tayfa və şəxs adlarından geniş şəkildə yararlanmışlar. Bunu Bolu və ətrafında yerləşən kənd və məhəllə adlarından da görmək mümkündür.

Hazırda Dörddivanın Adaköy kəndinə bağlı Naxçıvan məhəlləsi də yüzillər boyunca yerli sakinlər tərəfindən qorunub saxlanılaraq günümüzədək gəlib çatmış toponimlərdən biridir. Ötən yazıda bildirmişdik ki, Naxçıvan məhəlləsi Adaköy kəndinə aid olsa da, coğrafi baxımdan bu məhəllə kənddən bir az aralıda yerləşir. Məhəllənin kənddən niyə bu qədər aralı düşdüyünü oradakı dostlarımızdan soruşsaq da, buna məntiqli bir cavab ala bilmədik. Digər bir maraqlı məqam isə bundan ibarətdir ki, kəndlə məhəllə arasındakı ərazilər düzənlikdir və burada əkin sahələri yerləşir. Eyni zamanda məhəllə və kəndi bir-birindən asfaltlanmış avtomobil yolu ayırır. Bunu ona görə qeyd edirik ki, burada məhəlləni kənddən ayıracaq heç bir coğrafi maneə – dağ, təpə, dərə yoxdur. Yəni nə zamansa, zəlzələ və yaxud sel suları səbəbindən bu iki yaşayış məntəqəsini ayıracaq hadisənin olması inandırıcı görünmür. Elə bu müzakirələri edərkən bizimlə Naxçıvan məhəlləsi boyunca yolyoldaşı olan, vaxtilə bu məhəllədəki məscidin imamı olmuş Mustafa Uludağ bildirmişdi ki, vaxtilə indiki Naxçıvan məhəlləsi böyük bir ərazini əhatə etmiş, daha doğrusu, böyük bir yaşayış məntəqəsi olmuş, zaman keçdikcə əhalinin dolanışıq ucbatından böyük şəhərlərə köç etməsi nəticəsində "Naxçıvan" məhəllə səviyyəsinə qədər kiçilmişdir. Həmsöhbətimiz onu da əlavə etmişdi ki, dörddivanlıların Ankaradakı dərnək rəhbəri Fəxrəddin Özqorxmaz Osmanlı dövrünə aid xəritələrdə də bunun əks olunduğunu bildirir. Sonralar Fəxrəddin Özqorxmaz bizimlə söhbətində həmin xəritənin əks olunduğu fotonu göndərəcəyini də söz vermişdi.




Bu günlərdə Fəxrəddin bəy həmin xəritənin fotoşəklini bizə göndərdi. Osmanlı dövrünə aid bu xəritədə Bolu vilayətinin 1530-cu ilə aid yer adları əks olunub. Həmin xəritədə "Naxçıvan" adı kənd kimi göstərilib. Ətrafında isə Ada, Doğancılar, Adakınık və sair kəndlər yerləşir. Adakınık və Doğançılar kəndləri indi də var. Adaköy isə böyük ehtimalla xəritədə "Ada" kimi yazılmış kənddir.

Bilinən odur ki, Naxçıvan məhəlləsinin olduğu ərazi tam 500 il bundan əvvəl xəritədə kənd kimi qeydə alınıb və ehtimal etdiyimiz kimi, zaman-zaman əhalinin digər yerlərə köçməsi nəticəsində kiçilərək bugünkü məhəllə səviyyəsinə çatıb. Bununla yanaşı, maraqlı məqamlardan biri də odur ki, Türkiyə Respublikası Prezidentinin Dövlət Arxivləri Baş İdarəsinin Osmanlı Arxivi Şöbəsi tərəfindən nəşr olunan kitabda 1530-cu ilə aid Bolu sancağındakı qəza və kənd adları arasında Naxçıvanla yanaşı, Nahta, Nakren, Nacak, Nuh-viran, Nuh çiftliyi, Nuh zaviyəsi kimi yer adları da var. Nuh-viranın indiki Nuhören kəndi, (bu haqda ötən yazıda bəhs etmişdik) yoxsa ayrı bir kənd olduğunu dəqiqləşdirə bilməsək də, bu bölgədə Naxçıvan və Nuh Peyğəmbərlə bağlı çox zəngin toponimlərin olduğunu görürük. Bütün bunlar isə maraqlı tədqiqat mövzusudur. İnanırıq ki, bu istiqamətdə işləmək istəyən tarixçilər daha maraqlı faktların üzə çıxarılmasına nail ola biləcəklər.

✍ **Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Adını əbədiyaşarlıq və ucalıqdan alan irfan məbədgahı – Heydər Məscidi



*Bütün bəşəriyyəti pak surəti ilə xəlq edən Uca Yaradan sanki bu yerlərin insanlarına fərqli gözəllik bəxş edib, onlara qəhrəmanlıq, ucalıq, mübarizlik verib. Hər zaman tarixi, mədəniyyəti, incəsənəti ilə öyünsün deyib. Bu elin insanlarının qulaqlarına ana yurda, torpağa, Vətənə bütün mənəviyyatları ilə bağlı olsunlar deyə hikmət dolu sözlər söyləyib. Bəlkə, elə buna görədir ki, kainat ikinci həyatın pərvərişini bu torpaqdan götürüb, əziz və mehriban Allah Nuh Peyğəmbəri bu diyara çatdırmaqla min illərin Naxçıvanını Nuhçıxan məmləkəti olaraq dünyaya tanıdıb, adı dillərdə gəzib, sözü-söhbəti ümmanların məcrasını aşaraq Şərq mədəniyyətinə yetişib. Bu yerlərin insanları İlahinin təqdiri ilə qurub-yaradıb, Memar Əcəmi ucalığı bu məmləkətin gözəlliyindən ilhamlanıb, Məmməd Səid, Mirzə Cəlil, Hüseyn Cavid ruhu, Bəhruz Kəngərli duyğusu, mənəviyyatı və qarşısında dayandığım bu irfan məbədgahına – Heydər Məscidinə ucalıq, mübarizlik adını verən Heydər Əliyev dühasından yoğrulub bu yurdun mayası, qayəsi.*



Hər gün minarələrindən ucalan azan sədası ilə minlərlə insanın qəlbini riqqətə gətirir, yaşlı, gənc, uşaq demədən üzərində Rəhman və Rəhim olan Allahın adı yazıldığı qapılarını insanların üzünə açır Heydər Məscidi. Yüzlərlə müsəlman bu ümid ocağından, pənah yerindən ovuclarını açır Xaliq dərgahına, xalqımızın, millətimizin əmin-amanlığı, rəşadətli Ordumuzun mübarizliyi, yenilməzliyi, dövlətimizin gücü, qüdrəti üçün hər şeyin ən yaxşısını, ən gözəlini istəyir Uca Yaradandan. Qafqaz coğrafiyasının ən böyük ibadət məkanlarından biri olan Heydər Məscid kompleksi həm də dilindən, dinindən, irqindən asılı olmayaraq, hər kəsi eyni qonaqpərvərliklə qarşılayır, öz ehtişamı, Naxçıvan memarlıq məktəbinin bütün çalarlarını özündə ehtiva edən quruluşu ilə görənləri valeh edir. “Heydər Əliyev İli”ndə, 15 İyun – Milli Qurtuluş Günündə



istifadəyə verilən məscid qeyri-adi arxitekturası və memarlıq üslubu ilə diqqəti çəkir. Naxçıvanqala tarixi abidəsinin yaxınlığında, Nuh Peyğəmbərin məzarüstü abidəsinin sağ hissəsində Şərq memarlıq məktəbi üslubunda ucaldılan bu yeni məscid kompleksinin ümumi ərazisi 82 min 250 kvadratmetrdir. Məscidin minarələrinin hündürlüyü 38, günbəzlərinin hündürlüyü isə 14 metrdən artıqdır. Binanın daxilində müqəddəs “Qurani-Kərim”dən ayələr həkk olunub. Burada eyni vaxtda 5 min nəfər ibadət edə bilər. Ümumilikdə, üç hissədən – əsas və iki köməkçi məsciddən ibarət olan abidənin ərazisində kişilər və qadınlar üçün ayrıca ibadət və dəstəmaz otaqları və mərasim evləri yerləşir. Kompleksin ərazisində Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi və Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura üçün inzibati binalar da tikilib.

Mövzumuzu daha müfəssəl işıqlandırmaq üçün məscidin qazısı, Naxçıvan Muxtar Respublikası Qazısı Yanında Şuranın sədri ***Hacı Sahib Məmmədov***la həmsöhbət oluruq. Müsahibimiz söhbətə ilk əvvəl gördüyü, şahidi olduğu ötən əsrin qanlı-qadalı hadisələrindən, habelə həmin illərdə mövcud hakimiyyətin milli-mənəvi və dini dəyərlərimizə göstərdiyi biganəlikdən söhbət açır bizə. Onun söhbətini dinlədikcə bir daha insana agah olur ki, xalqımız necə mürəkkəb hadisələrin, çətinliklərin girdabından üzüağ çıxıb. Bir tərəfdən, necə deyərlər, qılıncını siyirib soydaşlarımıza qan udduran sovet imperiyası, digər tərəfdən isə əmmaməli iblislərin müqəddəs dinimizə sırımaq istədiyi mövhumat və xurafatlar, habelə təziyə məclislərində atılıb-düşüb, baş yarıb, qan axıdıb, sözdə imam övladlarına matəm saxlayan cahil və savadsız insanların bu işlərə qol qoyması və bunun kimi sətirlərə sığmayacaq onlarla hadisələr dinimizi kor və topal hala salmışdı...

Hacı Sahib Məmmədov söhbətimizə belə davam edir: – Azərbaycan xalqı hər zaman milli dəyərlərə sadiqliyini göstərib, bu dəyərləri əsrlərlə yaşadaraq onu inkişaf etdirib. Tarixin hər bir dövründə ölkəmizdə milli dəyərlərimizin qorunması və onun gələcək nəsillərə çatdırılması aktual olub. Elə günümüzdə də bu müsbət tendensiya özünü qoruyub saxlayır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var. Bu da bir danılmaz faktdır ki, İslam dini bizim milli-mənəvi dəyərlərimizin ən önəmli faktorlarından biri hesab edilir. Azərbaycan xalqı 70 il kommunist rejimində ateist təbliğatın aparıldığı bir şəraitdə yaşasa da, heç zaman öz dini dəyərlərini unutmayıb, onları gizli də olsa yaşadıb. Hətta yaxşı xatırlayıram ki, ötən əsrin bir çox mətbuat orqanlarında, “Kirpi” jurnalında, “Mozalan” verilişində İslam dininin adət-ənənələri, möminlər, din xadimləri, mollalar ağır tənqid atəşinə tutulurdu. Bir kəsin dindar, yaxud ruhani olduğunu eşitdikdə insanların əksəriyyəti həmin adama savadsız, cahil gözü ilə yanaşırdı. Bu səbəbdən də müstəqilliyimizi bərpa etmədən öncə müqəddəs dinimizə, müqəddəs yerlərimizə qarşı süni maneələr, təzyiqlər yaradılırdı. Əgər sovetlərdən əvvəl Azərbaycanda çoxlu sayda məscid, mədrəsə fəaliyyət göstərirdisə, keçmiş SSRİ-nin dövründə ölkədə barmaq sayını keçəcək qədər məscid vardı. Hazırda, azad, müstəqil məmləkətimiz Azərbaycanda üç minə yaxın məscid fəaliyyət göstərir ki, onların hər biri xalqın və fərqli dinə mənsub olan hər bir insanın üzünə açıqdır.

Sahib müəllimlə kompleksin həyatında müxtəlif mövzuları müzakirə edə-edə məscidin içərisinə doğru irəliləyirik. Tam səmimi etiraf etmək lazımdır ki, hər guşəsində milli memarlıq nümunələrimizin yer aldığı kompleks böyük dəqiqlik və müfəssəl zövqlə işlənib. Məscidə daxil olduğumuz andan etibarən ətrafda hiss edilən pak müşk ətri isə insana tamam başqa zövq verir. Yerə döşənmiş pambıq kimi yumşaq, təmiz xalı, binanın daxili fasadlarına çəkilmiş rəngli boya və üzərində ərəb əlifbası ilə həkk olunmuş “Allah” yazıları mənəvi aramlıq bağışlayır bizə. Məscidin ən yuxarı hissəsində isə ruhani və din xadimlərinin əyləşməsi üçün minbər qoyulub. Fıstıq ağacından uzun bir vaxt ərzində hazırlanmış bu minbərin ideya müəllifi isə Naxçıvan ictimaiyyətinin yaxşı tanıdığı istedadlı dülgər, mərhum Akif usta olub. Böyük həvəslə işlədiyi bu sənət əsərini görməyə ömrü yetməsə də, minbərə tamaşa edən hər kəs onun ruhuna dualar oxuyur. Bununla yanaşı, hər bir divarında və daxili sütunları üzərində qızılı rəngli boylarla çəkilmiş ornomental naxışlar milli dəyərlərimizin qorunması baxımından xüsusi əhəmiyyətə malikdir. Söhbətimizə böyük çil-çıraqla gur işığa qərq olmuş məsciddə davam edirik. Müsahibimiz dahi siyasi xadim Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin möhtəşəm şəkildə qeyd olunduğu bir ildə açılışı edilən bu kompleksi həm də Ulu Öndərin mənəvi irsinə töhfə kimi qiymətləndirir. Elə söhbətimizə də bu məqamdan körpü salırıq. Hacı Sahib Məmmədov deyir ki, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev hər bir sahədə olduğu kimi, dini ibadətgahlarımızın və abidələrimizin bərpası, onların yenidən inşası istiqamətində də bir yenilik etdi. Məhz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra yüzlərlə ibadətgah inşa olundu, bir çoxları yenidən bərpa edildi. Bir sözlə, dini dəyərlərimiz yenidən canlandı. Sovet rejimi tərəfindən dağıdılan “Bibiheybət” məscidi və ziyarətgahı məhz Ulu Öndər Heydər Əliyevin tapşırığı əsasında dövlət hesabına yenidən inşa olundu. Təsadüfi deyil ki, Ümummilli Liderimiz İslam dinini bizim milli-mənəvi kimliyimizin ayrılmaz bir hissəsi kimi qəbul edir və bildirirdi ki, dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Söhbətimizin bu yerində dahi siyasi xadim Heydər Əliyevin milli-mənəvi dəyərlərimiz barədə söylədiyi yüksək fikirləri xatırlayıram: – Ümummilli Liderimiz bir zamanlar deyirdi: ***“Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlərboyu xalqımızın həyatında, yaşayışında, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Bizim üstünlüyümüz ondan ibarətdir ki, gənc və güclü dövlətimiz möhkəm təməl üzərində qurulub. Çoxəsrlik tarix, mədəniyyət üzərində qurulub. Milli-mənəvi dəyərlər bizim üçün ən vacib məsələdir. Biz, təbii ki, ümumbəşəri dəyərləri bölüşürük. Ancaq bizim üçün başlıca dəyərlər öz milli Azərbaycan dəyərlərimizdir”.***



Müsahibimiz çox mühüm bir mövzuya – xalqımızın şərəf və ləyaqət rəmzinə çevrilmiş böyük Qarabağ Zəfərinə toxunaraq deyir ki, Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə başlamış 44 günlük haqq savaşı həm də yaxşını yamandan seçmək üçün ilahinin göndərdiyi bir imtahan idi bizim üçün. Çünki düşmənin nə az, nə çox 30 ilə yaxın bir müddətdə məkrli istəklərini, güclü hesab etdiyi siyasətini cəmi 44 gün ərzində yerlə bir edən ordumuz həm də dünyaya bir nümunə oldu, müsəlman-türk dövlətinin həqiqi gücünü göstərdi. Bu savaş həm də sözdə müsəlman, əqidədə ermənipərəst olan qüvvələrin, necə deyərlər, iç üzünü ortaya çıxardı. Xüsusən də illərdir, dost libasında aramızda olub, düşmənlə bir süfrədə əyləşən İranın molla rejiminin mövqeyini açıqca bəlli etdi. Lakin bu gün bütün bir xalq olaraq Allaha şükürlər edirik ki, qalib ordumuz tezliklə qara buludları azad Vətən səmasından dəf etdi. Hətta qürur duyaraq deyirəm ki, İkinci Qarabağ müharibəsi yekunlaşdıqdan sonra tarixi torpaqlarımıza səfər edən ilk insanlar içərisində mən də olmuşam. O zaman hələ işğaldan azad olunmuş torpaqlarımızda görülən işlər bu qədər geniş arealı əhatə etməmişdi. Bu səbəbdən də erməni daşnaklarının yaratdığı faciələrin bütün çalarları bizim və bütün dünyanın gözü qarşısında idi. Bir dənə belə olsun tikilisindən əsər-əlamət qalmayan Ağdam, Azərbaycan mədəniyyətinin beşiyi, tarixin yaşıdı, düşmən vandalizminin qurbanı olan Şuşa, içərisi donuzların oylağına çevrilmiş Gövhərağa məscidləri və neçə-neçə bu cür mənzərələr sanki zamanı dondururdu, məkanı unutdururdu insana... Bu yolda qazilərimiz də oldu, şəhidlərimiz də. Xalqımız heç zaman onları unutmur, unutdurmur. Şəhidlərimizin doğum günlərində və vəfatlarının ildönümlərində bizim qurum da başda olmaqla muxtar respublikamızın bütün ictimaiyyəti, eləcə də rayonlarımızdakı bütün din xadimlərimiz bu cür qəhrəman övladlar böyüdən ailələrin görüşünə gedir, onların dərdlərinə şərik olur, mənəvi dəstək göstərir. Ötən günlərdə geridə qoyduğumuz Qurban bayramı ərəfəsində də bu mövzulara toxunduq, qılınan bayram namazında iştirak edənlərlə birlikdə Allahdan bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı, xalqımıza, Vətənimizə əmin-amanlıq arzu etdik.

*Söhbətimizin ən şirin yerində bu ehtişamlı ümid ocağından “Allahu Əkbər” sədası ucalır göyə. Budur, işindən tez-tələsik ayrılan hər kəs özünü namaz üçün, dua üçün yetirir irfan məbədgahına, bir-birləri ilə salamlaşır, ayaqüstü hal-əhval tutur, ardınca hər kəs sıra ilə pişnamaz arxasında Uca Yaradana ibadətə hazırlaşır. Birazdan hər qəlbdən bir niyyət, hər dodaqdan bir arzu, hər ovucdan bir dua, hər könüldən bir istək qalxacaq asimana, Rəhman və Rəhim olan Allahın dərgahına. Bu mənəvi mühitdən ayrılmadan biz də dualara şərik oluruq, əllərimizi münacata qaldırıb deyirik: – İlahi, bizə bəxş etdiyin bütün nemətlər üçün sənə sonsuz şükürlər olsun. Öz izzətin və sonsuz cəlalına xatir Vətənimizin,dövlətimizin millətimizin adını daim zirvələrdə qərar ver, ordumuzu müzəffər və qalib eylə, yurdumuza, elimizə dil uzadan düşmənin məkrli niyyətini qəlbində puç et, həqiqətdən başqa heç nəyin qarşısında əyilməyən qələmimizi iti, sözümüzü kəsərli və ötkün eylə. Amin!*

**Məcid RƏŞADƏTOĞLU**

# “Bərabər dayanıqlı ailə planlaşdırması uğursuz nikahların qarşısını alan əsas faktorlardandır” mövzusunda maarifləndirici tədbir keçirilib

*Babək şəhərində “Bərabər dayanıqlı ailə planlaşdırması uğursuz nikahların qarşısını alan əsas faktorlardandır” mövzusunda maarifləndirici tədbir keçirilib. Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova tədbiri giriş sözü ilə açıb.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova çıxış edərək ölkəmizdə həyata keçirilən dövlət ailə, qadın və uşaq siyasətindən, eləcə də ailə dəyərləri



və ailədə ailə dəyərlərinin yaşadılmasının əhəmiyyəti haqqında tədbir iştirakçılarına məlumat verib.

Sonra komitənin əməkdaşı Yaqut Abbaszadə slayd vasitəsilə çıxış edib. O, ailədə bərabərliyin, dayanıqlılığın necə olmasını, bərabər və dayanıqlı ailə planlaşdırmasının yollarından və planlaşdırmanın əhəmiyyətindən bəhs edib. Dayanıqlı ailədə ailə üzvləri arasında güclü bağlılığın, qarşılıqlı hörmətin, ünsiyyət və həmrəylik hisslərinin mövcudluğunun var olduğunu vurğulayıb, cəmiyyətin aktual məsələsi olan erkən nikah və onun fəsadları haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Tədbir diskussiya xarakterli olub, suallar cavablandırılıb, müvafiq mövzularda maarifləndirici broşür paylanılıb və tədbir iştirakçıları arasında mövzu ilə əlaqədar yazılı şəkildə sorğu keçirilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Dövlət Film Fondu 2000-ci il yanvar ayından fəaliyyət göstərir. İlk olaraq Azərbaycan Dövlət Film Fondunun Naxçıvan filialı kimi fəaliyyətinə başlayıb. 2006-cı ildən isə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində müstəqil qurum kimi öz fəaliyyətini davam etdirir. Bu qurumun nə məqsədlə yaradılması, iş prinsipləri, həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat almaq üçün fondun direktoru **Mirakif Seyidova** müraciət etdik.*

# Dövlət Film Fondu fəaliyyətini genişləndirir



O bildirdi ki, film fondlarının yaradılma səbəbi o idi ki, sovet dövründə və ondan sonra müstəqilliyimizin ilk illərində filmlərin nümayişi ilə məşğul olan Azərkino Video İstehsalat Birliyi dağıldı, həmin müəssisənin bazasında Azərbaycan Dövlət Film Fondunun yaradılması qərarına gəlindi. Bu proses Naxçıvanda da eyni qaydada davam etdirildi. Azərkino Video İstehsalat Birliyinin Naxçıvan filialının bazasında Azərbaycan Dövlət Film Fondunun Naxçıvan filialı yaradıldı. Ümumilikdə, fondun məqsədi və vəzifələri respublikada film fondunun kolleksiyasını zənginləşdirmək üçün filmlərin alınması işini təşkil etməkdir, milli kino sənətinin təbliği məqsədilə yerli və beynəlxalq miqyaslı festivallar və digər tədbirlərin keçirilməsində iştirak etməkdir.



Mirakif Seyidovun sözlərinə görə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında fəaliyyət göstərən fondun əsas məqsədi müvafiq qaydada qeydə alınan, nümayişinə və yayımına icazə verilən, mülkiyyət formasından, buraxılış vaxtından və yerindən, texnikasından və istehsal üsullarından asılı olmayaraq, mədəni, bədii, ictimai-siyasi, elmi, tarixi və praktiki əhəmiyyət daşıyan filmlərin ilkin materialları və surətlərinin, o cümlədən müəyyən səbəblərə görə kütləvi nümayiş etdirilməmiş və ya istehsalı dayandırılmış filmlərin ilkin materialları və surətlərinin mühafizəsini həyata keçirmək və filmlərin, kinosalnamələrin, onların ilkin materiallarının mühafizəsi zamanı müəlliflik və əlaqəli hüquqlara riayət olunmasını təmin etməkdən ibarətdir.

Öyrəndik ki, fondda filmlər 5 boksda saxlanılır. Bədii, elmi-kütləvi, sənədli və animasiya filmləri olmaqla fondda, təxminən, 5000 adda film var. Fondda yaradılan Heydər Əliyev auditoriyası Ümummilli Liderimizin çoxşaxəli fəaliyyətinə həsr olunub. Burada maraqlı fotolar, filmlər, müxtəlif kitab və albomlar saxlanılır. Film fondunun 77 yerlik kino zalı da var.

Buradakı montaj otağı 8, 16, 35 millimetrlik filmlərin elektron formada köçürülməsi və videomontaj üçün nəzərdə tutulub.

Həmçinin burada 2004-cü ildə yaradılmış kino muzeyi də fəaliyyət göstərir. Burada Azərbaycan filmlərində istifadə olunan libaslar, silahlar, məişət əşyaları, musiqi alətləri və müxtəlif butaforlar nümayiş etdirilir. Fondda kitabxananın xidməti təqdirolunasıdır. Kitabxanada müxtəlif sahələri, o cümlədən kino sənətini əhatə edən kitablar özünə yer alıb. 100-dən artıq Azərbaycan filminin ssenarisinin montaj vərəqəsinin, filmlərin istehsalına aid sənədlərin surətlərinin, bədii filmlərə aid fotoşəkillərin mühafizə olunduğu bu mədəniyyət müəssisəsinin bərpa otağı lentlərin yuyulması üçün restovrasiya maşını ilə təmin edilib. Fondun dəhlizində müxtəlif ekspozisiyalar yerləşdirilib. Fəaliyyət göstərdiyi illər ərzində fondda olmayan 300-ə yaxın film rəqəmsal formata gətirilərək fondun arxivinə təhvil verilib.



Müsahibim diqqətimizə onu da çatdırdı ki, Naxçıvan Dövlət Film Fondu 2006-cı ildən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində müstəqil qurum kimi fəaliyyət göstərir. 2016-cı ildən başlayaraq fondda “Özfəaliyyət teatr kollektivlərinin muxtar respublika baxış müsabiqəsi”, “Gənc istedad” qısametrajlı filmləri üçün ədəbi ssenari müsabiqəsi, “Naxçıvandan dünyaya”, “Yol bir mədəniyyətdir”, “Keçmişdən soraq, gələcəyə səsləniş” sosial çarx və qısa filmlər müsabiqələri keçirilib. 2018-ci ildən başlayaraq muxtar respublikamızda fəaliyyət göstərən ümumtəhsil məktəblərinin 5-9-cu sinif şagirdləri arasında “Mən kinonu sevirəm”, “Milli filmlərimiz”, “Bu kino ki var...” adlı kinoviktorinalar keçirilib, qalib komandalar diplom və hədiyyələrlə təltif olunub. Bu ənənə cari ildə “Sinemotoqraf” layihəsi kimi davam etdirilir. Həmçinin 2018-ci ilin 24-30 sentyabr tarixlərində Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində “İslam filmləri həftəsi” keçirilib.

Məktəblilərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə mütəmadi olaraq fondda cizgi və bədii filmlərin nümayişi təşkil edilir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə keçirilən “Azərbaycan kinosu günü” və “Dünya kinosu və kino dünyası” layihəsi çərçivəsində muxtar respublikamızda, rayon və kənd mərkəzlərində, həmçinin yay mövsümü boyunca Naxçıvan şəhərində açıq havada Azərbaycanda və xarici kinostudiyalarda istehsal olunmuş filmlərin nümayişi təşkil olunur.

2023-cü ildə isə “Bir addım” qısametrajlı filmlər müsabiqəsinin keçirilməsi iş planına salınıb.

Bundan başqa, 2016-cı ildə Naxçıvan Dövlət Film Fondunun nəzdində yaradılan və fəaliyyət göstərən “Naxçıvan” kino klubu kino sahəsində maraqlı şəxslərin yaradıcılıq birliyidir.

Naxçıvan Dövlət Film Fondu tərəfindən müxtəlif dövrlərdə Naxçıvan Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, “Bahar”, “Araz” kinoteatrları, Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzi, Naxçıvan Dövlət Televiziyası və digər təşkilatların müraciəti əsasında müxtəlif mövzulu filmlər nüsxələndirib, təqdim edilib.

Mirakif Seyidovun sözlərinə görə bu ildən etibarən Naxçıvan radiosunda “Bu kino ki var...” radio layihəsi təsdiq olunub. Layihə çərçivəsində kinonun müxtəlif sahələri barədə, həmçinin müxtəlif kino sənətkarları, eləcə də yubilyar filmlər haqqında maraqlı məlumatlar radio dinləyicilərinə təqdim edilir.

2020-ci ildən etibarən muxtar respublikanın rayon və şəhər mədəniyyət şöbələrinə tabe olan müəssisələrin hazırladıqları xalq yaradıcılığı nümunələrinin, pandemiya dövründə onlayn konsertlərin, həmçinin mədəniyyətin müxtəlif sahələrinə aid qısa videoların çəkilişi, montajı və yayımlanması prosesi film fondu tərəfindən həyata keçirilir.

2021-ci ildə “Heydər Əliyev Muzeyi”ndə olan VHS kassetlərin rəqəmsal daşıyıcıya köçürülərək bərpası aparılıb.

Digər belə mədəniyyət müəssisələrində olmayan nadir eksponatlar barədə sualımıza cavab olaraq bildirildi ki, Azərbaycan Dövlət Film Fondunda kinorejissor Zeynəb Kazımovanın 110 illik yubileyinə hazırlıqlarla əlaqədar aparılan yeni araşdırmalar zamanı rejissorun 1963-cü ildə çəkdiyi “Axırıncı namaz” ikihissəli qısametrajlı film çəkdiyi aşkar edilib, həmin filmin yeganə lent nüsxəsi Naxçıvan Dövlət Film Fondunun arxivində olduğu üzə çıxıb, film rəqəmsal daşıyıcıya köçürülüb, bərpa edilərək nüsxələnib.

2016-cı ildən indiyə qədər hard diskdə film fondun arxivinə 187 bədii film, 46 cizgi film, 60 sənədli-bədii, 140 sənədli, 11 qısametrajlı olmaqla, ümumilikdə, 444 film daxil olunub. Fondun zəngin fotoarxivi də mövcuddur ki, bu arxivdə Azərbaycan kinosunu əhatə edən on bir mindən artıq fotoşəkil saxlanılır. Fondun sosial şəbəkə hesablarında hər təqvim günü kino, yubilyar filmlər, həmçinin fond tərəfindən keçirilmiş tədbirlərlə bağlı mütəmadi paylaşımlar edilir. Fondda Azərbaycan filmləri ilə yanaşı, dünya kinomotoqrafiyası incilərinin qorunub saxlanıldığını diqqətimizə çatdıran Mirakif müəllim dedi: – Film fondda təkcə yerli istehsal filmləri yox, dünya filmlərindən nümunələr də yer alıb. Xüsusən keçmiş sovet məkanında çəkilmiş həm bədii, həm də elmi-kütləvi, sənədli, eləcə də cizgi filmləri lentlərdə qorunub saxlanılır. Bu gün Azərbaycan Dövlət Film Fondu ilə sıx əlaqədə fəaliyyət göstərərək qarşılıqlı araşdırmalar da aparılır. Nəticədə, müəyyən edilib ki, Naxçıvan Dövlət Film Fondunda çox unikal filmlər vardır. Belə ki, həmin filmlər heç Azərbaycan Film Fondunda yoxdur: – Təəssüf ki, Beynəlxalq Kino Prodüserləri Cəmiyyətinin üzvü olmadığımıza görə digər kino fondları ilə əlaqə saxlaya bilmirik. Söhbətimin əvvəlində də dediyim kimi, ötən il Zeynəb Kazımovanın “Axırıncı namaz” filminin yeganə nüsxəsi Naxçıvan Dövlət Film Fondunda tapıldı. Biz onu rəqəmsal daşıyıcıya köçürərək Azərbaycan Dövlət Film Fonduna göndərdik ki, həmin filmin bir nüsxəsi bizə qaytarılmaq şərtilə orada yenidən bərpa olunsun. Bundan başqa, cizgi filmləri var ki, Azərbaycan Dövlət Film Fondunda onların orijinalı yoxdur.

Filmlərin əldə olunması üçün fondda hansı tədbirlər görülməsi ilə maraqlandıqda Mirakif müəllim dedi: – Muxtar respublikada kinostudiya olmadığından, Azərbaycanda çəkilişlər daha çox Bakı şəhərində mərkəzləşdiyi üçün filmləri yalnız Bakıdan – Azərbaycan Dövlət Film Fondundan, Azərbaycanfilm kinostudiyasından, Bakıda yerləşən müxtəlif kino şirkətləri ilə əlaqələr quraraq əldə edə bilirik. Bu il Azərbaycan Dövlət Film Fondu tərəfindən keçirilən kinoforuma biz də dəvət edilmişdik. Bu çox sevindirici oldu. Çünki uzun illər bizim paytaxtla sıx təmasımız yox idi. Bizim orada olmağımızın əsas məqsədi də Naxçıvan Dövlət Film Fondunun arxivinin zənginləşdirilməsi, həmçinin təcrübə mübadiləsi idi. Oradan 46 adda film gətirib film fondumuza daxil etdik. Naxçıvan Dövlət Film Fondunun zənginləşdirilməsi yalnız bu yolla həyata keçirilir. Son dövrlər filmlər lent şəklində təqdim olunmadığı üçün yalnız rəqəmsal daşıyıcılarda gətirilərək arxivimizi zənginləşdiririk.

*Fondun gələcəkdə həyata keçirəcəyi tədbirlər barədə də ətraflı məlumat verən fondun direktoru bildirdi ki, qarşıya mühüm vəzifələr qoyulub – milli sərvətimiz olan kinoların qorunması və təbliği. Bu vəzifələri yerinə yetirmək üçün fondun kollektivi səy və bacarığını gələcəkdə də əsirgəməyəcək.*

✍ **Aidə İBRAHİMOVA**

## Yeni aparat rəhbəri təyin olunub



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə yeni aparat rəhbəri təyin olunub. Bununla bağlı Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin vəzifələrini müvəqqəti icra edən Xanlar Mustafayev əmr imzalayıb.

Əmrə əsasən Malik İsmayılov aparat rəhbəri təyin olunub.

Qeyd edək ki, Malik İsmayılov bundan öncə Şərur Rayon Təhsil Şöbəsinin müdiri vəzifəsində çalışıb.

**Xəbərlər şöbəsi**

*Yeni nəşrlər*

## Naxçıvanın paremioloji vahidlərinin toplandığı kitab çapdan çıxıb




“Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər” adlı yeni kitab işıq üzü görüb. AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Cəfərovanın tərtib etdiyi kitabda Naxçıvan Muxtar Respublikası ərazisində işlənən paremioloji vahidlər toplanıb.

Kitab AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı, Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili, filologiya üzrə fəlsəfə doktoru, dosent Əziz Ələkbərlinin redaktorluğu və filologiya elmləri doktoru, professor Füzuli Bayatın rəyi əsasında çap olunub.

Əsər Əziz Ələkbərlinin kitaba yazdığı “Həqiqətin izahedici gücü: deyimlər, atalar sözləri və məsəllər” adlı ön sözlə başlayır. Ön sözdə xalqın etnik dünyagörüşündən qaynaqlanan, əxlaqi dəyərləri təbliğ edən paremioloji vahidlərin elmi müstəvidə tədqiqinin vacibliyinə diqqət çəkilir.

Aytən Cəfərovanın kitaba əlavə etdiyi giriş xarakterli məqalədə paremiyaların milli-mənəvi dəyərlər sistemimizdəki yerindən, onların yaddaşlardan toplanması, nəşri və tədqiqinin xalqın dünyagörüşünün aşkara çıxarılmasındakı rolundan bəhs edilir.

Günümüzədək gəlib-çatmış, əksəriyyəti məişətdə geniş istifadə olunan bu örnəklər kitabda “Xalq arasında ən çox işlədilən deyimlər”, “Atalar sözləri və məsəllər” başlıqları altında əlifba sırası ilə verilib.

Kitab geniş elmi ictimaiyyət üçün nəzərdə tutulub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

### *İtmişdir*

Quliyev Elmar Məmməd oğlunun adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Çərçiboğan kənd sakini Seyidov Mirsəməd Mirhəsən oğlunun adına verilmiş JN-118A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək şəhərində yaşamış İbrahimova Atlas Həbib qızının adına olan JN-152A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 407